# Məktəbdə görüş

Bakı şəhərindəki 56 saylı məktəb Füzuli rayonunun bir çox sakinləri kimi Abşeronda sığınacaq tapıb. Məktəbdə tədrislə yanaşı, şagirdlərin estetik tərbiyəsi də diqqət mərkəzindədir. Bu günlər məktəbin müəllim və şagird heyəti ilə tanınmış teatr və kino aktyoru, xalq artisti Nurəddin Mehdixanlı və Akademik Milli Dram Teatrının ədəbi hissə müdiri, Əməkdar mədəniyyət işçisi, yazıçı-publisist Atababa İsmayıloğlu ilə görüş keçirilmişdir. Görüşü məktəbin direktoru filologiya üzrə fəlsəfə doktoru Ehtiram Səfərov açaraq belə görüşlərin əhəmiyyətindən, şagirdlərin yaddaşında buraxdığı izdən söhbət açmış, qonaqları təqdim etmişdir. Məktəbin müəllimləri Nərgiz Familzadə, Eltac Ağayeva və başqaları qonaqların yaradıcılığı haqqında məlumat vermişlər. Görüş iştirakçıları şagirdlərin ədəbiyyat və sənətlə bağlı çoxsaylı suallarını cavablandırmış, yaradıcılıqlarından nümunələrlə çıxış etmişlər.

**Nərgiz ALIYEVA.**